BOKT “İDEAL KREDİT” MMC

**Hər birinin nominal dəyəri 100 (bir yüz) Azərbaycan manatı olan 60 000 (altmış min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların**

# BAZA EMİSSİYA PROSPEKTİ

Qeyd: Azərbaycan Respublikası Mərkəzi Bankı bu Baza Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

**Bakı – 2025**

Baza Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və

Baza Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

**B Ə Y A N A T**

Biz, aşağıda imza edənlər,

1.Bu Baza Emissiya Prospektini tərtib etməzdən öncə "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

2.Hər birinin nominal dəyəri 100 (bir yüz) Azərbaycan manatı olan 60000 (altmış min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların Baza Emissiya Prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

BOKT "İDEAL KREDİT" MMC-nin

Direktoru: Qubadov Qubad Baxış oğlu

_______________

*(imza)*

*Tarix:* 03.06.2025

BOKT "İDEAL KREDİT" MMC-nin

Baş mühasibi: Tanrıverdiyeva Rəna Əlihüseyn qızı

_______________

*(imza)*

*Tarix* 03.06.2025

Azərbaycan Respublikası • Bank Olmayan Kredit Təşkilatı • Non-banking Credit Organization • Azerbaijan Republic
MMC
İDEAL KREDİT
LLC

**MÜNDƏRİCAT**

B Ə Y A N A T....................2

XÜLASƏ....................4

1. XƏBƏRDARLIQ....................4

2. EMİTENT HAQQINDA MƏLUMAT....................5

3. QİYMƏTLİ KAĞIZLAR HAQQINDA MƏLUMAT....................9

4. RİSK FAKTORLARI....................11

5. TƏKLİF....................11

6. İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT....................13

7. BAZA EMİSSİYA PROSPEKTİ ÜZRƏ İSTİQRAZLAR HAQQINDA TƏLƏB OLUNAN MƏLUMAT....................25

*Qeyd: Baza Emissiya Prospektinin mətnində (Bank Olmayan Kredit Təşkilatı "İdeal Kredit" Məhdud Məsuliyyətli Cəmiyyət) emitent adları altında çıxış edir.*

**XÜLASƏ**

**1. XƏBƏRDARLIQ**

Bu sənəd Baza Emissiya Prospektinin giriş hissəsidir.
İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar verməzdən əvvəl bu Baza Emissiya Prospektini (informasiya memorandumunu) oxuduqdan sonra həyata keçirilməlidir.
Baza Emissiya Prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Baza Emissiya Prospektini hazırlamış şəxslər mülki məsuliyyəti daşıyırlar.

**Anlayışlar**

- **Nəzarət orqanı** – Azərbaycan Respublikasının Mərkəzi Bankı.
- **Qiymətli kağızlar bazarı** – qiymətli kağızların emissiyası, buraxılması, tədavülü, ödənilməsi, mülkiyyətçiliyi, saxlanılması, kompensasiyası, öhdəliklərlə yüklənməsi, tənzimlənməsi və digər əməliyyatların həyata keçirilməsi üzrə subyektlər arasında olan hüquqi və iqtisadi münasibətlərin məcmusu:
- **İstiqraz** – İstiqraz emitentin istiqraz mülkiyyətçisinə borclu olduğunu təsdiqləyən və şərtlərindən asılı olaraq, müəyyən edilmiş tarixdə faiz (kupon) və ya diskont və əsas məbləği ödənilən borc investisiya qiymətli kağızıdır:
- **Faiz ödənişi (və ya kupon)** – istiqrazlar üzrə investorlara ödənilən faiz məbləğidir. Kuponlar istiqrazın nominal dəyərindən hesablanır və faizlə göstərilir:
- **Emitent** – İstiqrazların emissiyasını həyata keçirən hüquqi şəxs. Emitent buraxdığı qiymətli kağızların mülkiyyətçisi deyildir. Emitent qanunda nəzərdə tutulan məhdudiyyətlər nəzərə alınmaqla geri aldığı qiymətli kağızların mülkiyyətçisi kimi çıxış edir:
- **İnvestor** – qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin alıcısı və ya onları almaq təklifini verən şəxs:
- **Anderraytinq** – emitentin və ya üçüncü şəxslərin xeyrinə qiymətli kağızların kütləvi təklifi və yerləşdirilməsi üzrə investisiya xidməti:
- **Marketmeyker** –qiymətli kağızlar bazarında mütəmadi olaraq öz hesabına və fond birjası ilə razılaşdırılmış qiymət dəhlizi çərçivəsində özünün müəyyənləşdirdiyi qiymətlərlə qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin alqı-satqısını həyata keçirən hüquqi şəxs:
- **Fond birjasının listinqi** – fond birjasının daxili qaydaları ilə müəyyən edilmiş tələblərə əsasən fond birjasında ticarətə qəbul edilən qiymətli kağızların siyahısı:

■ **Mərkəzi depozitar** – onun üzvləri olan investisiya şirkətləri və investisiya fondunun depozitarları ilə birlikdə depozitar sistemini təşkil edən və həmin sistemi idarə edən maliyyə bazarlarına nəzarət orqanının təsis etdiyi qeyri-kommersiya hüquqi şəxsidir:

■ **Depo hesabı** – mərkəzi depozitarın üzvünün müraciəti əsasında müştəri üçün mərkəzi depozitarda açılmış və özündə müştərinin qiymətli kağızlarına olan hüquqlara dair qeydləri əks etdirən hesab.

## 2. EMİTENT HAQQINDA MƏLUMAT

### 2.1. İstiqrazların emissiyası zamanı aşağıdakı məlumatlar təqdim edilməlidir

**2.1.1. Emitentin tam adı:** Bank Olmayan Kredit Təşkilatı "İdeal Kredit" Məhdud Məsuliyyətli Cəmiyyət

**2.1.2. Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Bakı şəh, Bakı şəhəri, Nərimanov rayonu, Fətəlixan Xoyski pr., ev 111"A", m. 26, Məhdud Məsuliyyətli Cəmiyyət, Azərbaycan Respublikası

**2.1.3. Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:** BOKT "İDEAL KREDİT" MMC əsasən təminatlı kreditlər (Lizinq, qızıl girovlu, daşınmaz əmlak girovlu kreditlər) olmaqla fiziki şəxslərə, fərdi sahibkarlara və hüquqi şəxslərə kreditlərin verilməsi üzrə fəaliyyət göstərir. Hazırki dövrdə kredit təşkilatlarına əsas təsir edən faktorlar olan bazar riskləri və portfel keyfiyyəti kimi faktorlar BOKT "İDEAL KREDİT" MMC-də qənaətbəxş idarə olunur. Belə ki, təşkilatın portfelində prospektin hazırlandığı tarixə valyuta riski yaradacaq kreditlər yox səviyyəsindədir. Belə ki, xarici valyuta ilə verilmiş kreditlərin qalıq məbləği 30.04.2025-ci il tarixinə **215384.51 (iki yüz on beş min üç yüz səksən dörd manat 51 qəpik) manat ekvivalentində** olmaqla ümumi kredit portfelinin 1% (bir) faizi həcmini təşkil edən 2016-cı ildən öncə verilmiş kreditlərdir. Hazırda kreditlər milli valyutada verilməkdədir. Kredit portfelində 30 gündən çox gecikmiş kreditlərin nisbəti göstəricisi 5% ətrafında idarə olunur. Bundan əlavə BOKT "İDEAL KREDİT" MMC kredit portfelinin diversifikasiyası üzrə də tədbirlər həyata keçirir. Belə ki, partnyorlarla əməkdaşlıqlara istiqamətlənməklə fəaliyyət sektorunun genişlənməsi və digər meyarlar üzrə həyata keçirlən tədbirlər sayəsində kredit portfelinin daha keyfiyyətli və risksiz idarə olunması hədəflənir.

**2.1.4. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:**

| Adı | Əsas fəaliyyəti | Təsis edildiyi ölkə | Kapitalda payı |
|---|---|---|---|
| Mövcud deyil | | | |
| | | | |
| | | | |

**2.1.5. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcüd deyil

**2.1.6. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:** Müstəqil auditor cəmiyyəti olan **"Reanda Azərbaycan" MMC-nin (əvvəlki adı "Oshar" MMC)** 2022, 2023-cü illərdə, **"Nexia Azərbaycan" QSC isə** 2024-cü ildə BOKT "İDEAL KREDİT"

MMC-də auditor yoxlaması aparmışdır. **“Oshar” MMC-nin** 2022-ci ilin yekunlarına görə apardığı auditor yoxlamasının nəticələrinə dair rəyə əsasən əlavə edilən maliyyə hesabatları 31 dekabr 2022-ci il tarixinə Təşkilatın maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından - Şərti rəy üçün əsasda qeyd olunan məsələdən başqa - düzgün əks etdirir. ***Şərti Rəy üçün əsas hissədə qeyd edilib*** 9 saylı qeyd üzrə Təşkilatın balansında ilkin tanınma ilə 3l dekabr 2022-ci il tarixinə 153 975 AZN məbləğində əsas vəsait əks etdirilmişdir. Təşkilat, 13 saylı MHBS-a esasen Ədalətli Dəyərin Ölçülməsi tələbi üzrə balansda əks etdirilmiş əsas vəsaitlərin ilkin tanınma dəyərini ədalatli dəyər prinsipi ilə müəyyənləşdirməmişdir. Həmin dəyərin düzgün qiymətləndirilməsi ilə bağlı əminlik əldə edə bilmedik. Nəticədə, 2021 və 2022-ci il tarixlərində balansda əks etdirilmiş əsas vəsaitlərin ədalətli dəyəri ilə əlaqədar tələb olunan düzəlişlərin məbləğini müəyyən edə bilmədik. **“Oshar” MMC-nin** 2022-ci ilin yekunlarına görə BOKT “İDEAL KREDİT” MMC-də apardığı auditor yoxlamasının nəticələrinə dair rəyə əsasən əlavə edilən maliyyə hesabatları 31 dekabr 2023-cü il tarixinə Təşkilatın maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından - Şərti rəy üçün əsasda qeyd olunan məsələdən başqa - düzgün əks etdirir. ***Şərti Rəy üçün əsas hissədə qeyd edilib*** 9 saylı qeyd üzrə Təşkilatın balansında ilkin tanınma ilə 31 dekabr 2023-cü il tarixinə 253 163 AZN məbləğində əsas vəsait əks etdirilmişdir. Təşkilat, 13 saylı MHBS-a əsasən Ədalətli Dəyərin Ölçülməsi tələbi üzrə balansda əks etdirilmiş əsas vəsaitlərin ilkin tanınma dəyərini ədalətli dəyər prinsipi ilə müəyyənləşdirməmişdir. Həmin dəyərin düzgün qiymətləndirilməsi ilə bağlı əminlik əldə edə bilmədik. Nəticədə, 2022 və 2023-cü il tarixlərində balansda əks etdirilmiş əsas vəsaitlərin ədalətli dəyəri ilə əlaqədar tələb olunan düzəlişlərin məbləğini müəyyən edə bilmədik. **“Nexia Azərbaycan” QSC-nin** rəyinə əsasən 31.12.2024-cü il tarixinə BOKT “İDEAL KREDİT” MMC-nin hesabatın Şərti Rəy üçün əsas hissəsində təsvir edilən məsələlərin təsirləri istisna olmaqla, əlavə edilən maliyyə hesabatları 31 dekabr 2024-cü il tarixinə Təşkilatın maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından düzgün əks etdirir. ***Şərti Rəy üçün əsas hissədə qeyd edilib*** *Biz* 2024-cü il üzrə Əsas vəsaitlər və qeyri-maddi aktivlər maddəsinin dövriyyəsindəki (76,511) AZN, Satış üçün saxlanılan aktivlər maddəsinin dövriyyəsindəki 101,767 AZN, İstifadə hüquqlu aktivlər maddəsinin dövriyyəsindəki (165,274) AZN, 31 dekabr 2023-cü il tarixinə Digər öhdəliklər maddəsində göstərilmiş 949,979 AZN məbləğlərin düzgünlüyünə dair əminlik əldə edə bilmədik. Bu məbləğlərin maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətinin müəyyən edilməsi prosesinin bir hissəsi olduğu üçün biz maliyyə vəziyyəti haqqında hesabatda, mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabatda, kapitalda dəyişikliklər haqqında hesabatda və pul vəsaitlərinin hərəkəti haqqında hesabatda hər hansı düzəlişlərin zəruri olub-olmadığını müəyyən edə bilmədik. Biz auditi Beynəlxalq Audit Standartlarına (“BAS”) uyğun olaraq apardıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti bölməsində təsvir olunur. Mühasiblər üçün Beynəlxalq Etika Standarları Şurasının “Peşəkar mühasiblərin etika məcəlləsi”nə (“MBESŞ Məcəlləsi”) uyğun olaraq biz Təşkilatdan müstəqilik və biz MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz auditor sübutu şərti rəyin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

**2.1.7. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:**

| Göstəricilər | 2024 (audit olunmuş) | 2023 (audit olunmuş) | 2022 (audit olunmuş) |
|---|---|---|---|
| **Mənfəət/Zərər (vergidən əvvəl)** | 2 923 473 | 1 836 923 | 1 299 267 |
| **Xalis mənfəət (vergidən sonra)** | 2 371 276 | 1 469 538 | 1 039 413 |
| **Cəmi öhdəliklər** | 10 604 414 | 8 002 047 | 5 146 928 |
| **Cəmi kapital** | 7 311 612 | 4 940 335 | 3,605,532 |
| **Cəmi aktivlər** | 17 916 026 | 12 942 382 | 8 752 460 |
| **Kredit Portfeli** | 15 726 137 | 11 944 666 | 8 099 590 |
| **Pul vəsaitləri** | 58 464 | 44 022 | 112 037 |

**2.1.8. Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:**

Ölkədə son 3 il ərzində BOKT "İDEAL KREDİT" MMC-nin maliyyə sabitliyinə, pul axınına və borc öhdəliklərini vaxtında yerinə yetirmək imkanına mənfi təsir göstərmiş əhəmiyyətli hadisələr baş verməmişdir. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin 2025-ci ilin 1-ci rübü üzrə açıqladığı iqtisadi göstəricilərə əsasən ölkədə iqtisadi artım davam etməkdədir. Belə ki, 2025-ci ilin ilk rübündə ölkədə Ümumi Daxili Məhsul (ÜDM) real ifadədə 0.3% artımla nominal olaraq 29 892.9 mln manat təşkil etmişdir. İlk rübdə adambaşına düşən ÜDM-nin həcmi 2922.2 manat olmuşdur. İqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 2.5% artımla nominal olaraq 20 102.6 mln manat təşkil etmişdir. Qeyri-neft-qaz özəl sektor üzrə əsas kapitala yönəldilmiş investisiyalar 36,9 faiz artmış, cəmi investisiyalarda xüsusi çəkisi 31,9 faiz təşkil etmişdir. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər isə 3.8% real azalma ilə nominal olaraq 9 790.3 mln manat təşkil etmişdir. Bundan əlavə 2025-ci ilin ilk rübündə dövlət büdcəsinin gəlirləri 5,4 faiz artmış və 9.733,4 mln. manat olmuş, xərcləri isə 3,5 faiz azalmış və 8.115,0 mln. manat olmuşdur. Bununla da 1-ci rübdə dövlət büdcəsinin profisiti 1 618.4 mln manat təşkil etmişdir. 2025-ci ilin 1-ci rübündə istehlak bazarına dair göstəricilər də 5.1% real artımla 18 483.2 mln manat olmuşdur. İstehlak bazarına dair göstəricilərdə Pərakəndə ticarət 3.8% real artımla 14 587.2 mln manat, ictimai iaşə 17,6% real artımla 561.3 mln manat, Əhaliyə göstərilən ödənişli xidmətlər 9.4% real artımla 3 334,7 mln manat təşkil etmişdir. Müvafiq dövürdə ölkə üzrə orta aylıq əməkhaqqı məbləği də 10% artmaqla 1083.8 manata bərabər olmuşdur. 2025-ci ilin ilk rübü üzrə açıqlanmış orta illik inflyasiyanın həcmi 5,6 faiz olmuşdur. Beləliklə içtimayyətə açıqlanmış bu əsas iqtisadi göstəricilər ölkədə iqtisadi artımın davam etdiyini göstərməkdədir. Bununla belə Rusiya Federasiyası ilə Ukrayna arasındakı münaqişə, eləcə də istehlakçıların mallara olan tələbatının artması 2022 - 24-cü illərdə qlobal iqtisadiyyata əhəmiyyətli inflyasiya təzyiqlərinin yaranması, o cümlədən əmtəə qiymətlərinin kəskin artmasna təzyiq göstərməkdədir. Lakin Azərbaycan höküməti iqtsadi artımı və maliyyə inkulizivliyini davamlı dəstəkləmək üçün bir sıra inkişaf layihələri, investisya təşviqləri və müəssisələrin (KOB) maliyyəyə çıxışını təşviq edən tədbirlər görməkdədir. Hazırda Azərbaycan manatı sabitliyini qoruyaraq 1 ABŞ dolları 1.7 AZN səviyyəsində qalmışdı. Pul siyasətinə dair verilmiş qərarlara əsasın hazırda uçot dərəcəsi 7.25% səviyyəsində müəyyənləşdirilmişdir. 2025-ci il ərzində faiz dəhlizinə baxılması üçün növbəti iclaslar planlaşdırılıb. Mərkəzi Bank 2025-ci ildə pul siyasətində əsas hədəfini inflyasiya gözləntilərinin sabitləşdirilməsinə yönəltmişdir. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq pul siyasətinin hədəfi növbəti ildə də illik inflyasiyanı 4±2% intervalında saxlamaqdan ibarət olacaqdır ki, bu da öz növbəsində ölkədə həyata keçirilən layihələrin, o cümlkədən biznes mühitinin inkişafını dəstəkləyəcək. Hazırda

BOKT-nin ödəmə qabiliyyətinə təsir edən əsas faktor, banklardan cəlb edilmiş *(aşağıdakı cədvəldə göstərilmiş)* kreditlərin geri ödənişləridir. Əlavə edirik ki, BOKT 2025-ci ilin 1-ci rübündə Mərkəzi Bank qarşısında olan kredit öhdəliyini tam icra etmişdir, hazırda Mərkəzi Bank qarşısında borc öhdəliyi yoxdur. Təsisçilərdən cəlb edilmiş borc vəsaitləri 5 il müddətinə cəlb edilmiş və müqavilə müddəti bitdikdən sonra müddətin uzadılması ehtimalı çox yüksəkdir. Yerli banklardan cəlb edilmiş vəsaitlər isə əsasən 3 il müddətinə qaytarmaq şərti ilə cəlb edilmiş vəsaitlərdir.

| Göstəricilər | 2024 (audit olunmuş) | 2023 (audit olunmuş) | 2022 (audit olunmuş) |
|---|---|---|---|
| AR. Mərkəzi Bankındandan alınmış kreditlərin qalıq məbləği | 13 891 | 27 783 | 41 675 |
| İllik % dərəcəsi | 0.10% | 0.10% | 0.10% |
| Təsisçilərdən alınmış borc vəsaitlərinin qalıq məbləği | 3 649 960 | 2 853 960 | 2 853 960 |
| İllik % dərəcəsi | 0% | 0% | 0% |
| Yerli banklardan eyni faizlə alınmış kreditlərin qalıq məbləği | 4 702 849 | 2 909 068 | 1 337 032 |
| İllik % dərəcəsi | 12% | 12% | 12% |
| Yerli banklardan fərqli faizlə alınmış kreditlərin qalıq məbləği | 400 000 | - | - |
| İllik % dərəcəsi | 13.5% | - | - |

Bundan əlavə ödəmə qabiliyyətinə təsir edən əsas faktorlardan biri olan kredit portfelinin keyfiyyəti qənaətbəxşdir. Aşağıdakı cədvəldə *30* gündən çox gecikmiş portfelin kredit portfelinə nisbəti göstəricisinin illər üzrə dinamikası göstərilmişdir:

| Göstəricilər | 31.12.2024 | 31.12.2023 | 31.12.2022 |
|---|---|---|---|
| **PAR>30 (məbləğ)** | 976 192 | 946 719 | 721 334 |
| **PAR>30/Portfel (%)** | 5.6% | 7.66% | 8.44% |

**2.1.9. Emitentin əsas fəaliyyətlərinin təsviri:** BOKT "İDEAL KREDİT" MMC Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər. Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik BOKT "İDEAL KREDİT" MMC, həmçinin aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:

- Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);
- Lizinq;
- Veksellərin uçotu;
- Qarantiyanın verilməsi;
- Sığorta agenti xidmətlərinin göstərilməsi;
- Borcalanlara, o cümlədən, birgə borcalan qruplarına maliyyə, texniki, idarəetmə və maliyyə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

**2.1.10. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti:** BOKT-un nizamnamə kapitalı hər biri 50 pay, 50% pul şəklində iki

iştirakçına məxsusdur. Cəmiyyətin ali idarəetmə orqanı onun İştirakçılarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq BOKT-un fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi Yığıncaq növbəti və növbədənkənar ola bilər. Cəmiyyətin iştirakçılarının ümumi yığıncağında cəmiyyətin paylarının əlli faizindən artıq hissəsinə malik olan iştirakçıları iştirak etdikdə ümumi yığıncaq səlahiyyətlidir.

## 3. QİYMƏTLİ KAĞIZLAR HAQQINDA MƏLUMAT

### 3.1. İstiqraz emissiyası zamanı aşağıdakı məlumatlar təqdim edilməlidir

**3.1.1. İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar.

**3.1.2. İstiqrazların valyutası:** Azərbaycan manatı

**3.1.3. İstiqrazlar ilə təsbit olunan məhdudiyyətlər:** Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

**3.1.4. İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

İstiqrazın sahibi aşağıdakı hüquqlara malikdir:

- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda istiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən illik (14% faiz) olmaqla, istiqrazların tədavül müddəti ərzində faiz almaq;
- Emitentin ləğvi, yaxud yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**3.1.5. İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin nəyin əsasında hesablanması üsulu, həmin əsas barədə məlumat və onun müəyyən olunmasının mənbələri:**

İstiqrazlar üzrə illik faiz dərəcəsi ( 14 ) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən (_5_) il müddətində, ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə) hər (3 (üç)) təqvim ayından bir ödənilir.

Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti ilk iş günü ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir. İstiqrazların nominal dəyəri sonuncu kupon ödənişi ilə birlikdə ödəniləcəkdir.

**3.1.6. Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:**

İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**3.1.7. İstiqrazların geri satın alınma şərtləri:**

İstiqrazların emitent tərəfindən geri satın alınması nəzərdə tutulmur.

**3.1.8. Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:**

İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

$$\frac{\left(\frac{N * D * G}{360}\right)}{100}$$

Burada:
TF – Bir istiqraz üzrə toplanmış faizlər ( Azərbaycan manatı ) ilə ifadə olunur);
N – Bir istiqrazın nominal dəyəri (100 (bir yüz) AZN);
D – İstiqrazların illik faiz dərəcəsi (14%);
G – İstiqrazlar üzrə son faiz (kupon) ödənişindən sonra keçən günlərin sayı (bir ayda 30 gün olduğunu qəbul etmək şərti ilə).

**3.1.9. İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** Mövcud deyil.

**3.1.10. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada təklif edilir.

**3.1.11. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri.**

İstiqrazların ilkin yerləşdirilməsi kütləvi təklif üsulu ilə "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların listinqə daxil olması ilə bağlı müraciət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir

- dövlət qiymətli kağızları bazarı
- korporativ qiymətli kağızlar bazarı
- törəmə maliyyə alətləri bazarının Ticarətə buraxılmanın şərtləri "Bakı Fond

Birjasında" qiymətli kağızların listinqə daxil olması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili" və "Bakı Fond Birjasında qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə ticarətin təşkili və keçirilməsi" Qaydaları əsasında tənzimlənir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Emissiya prospekti qeydiyyata alınıb, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 4. RİSK FAKTORLARI

**4.1. Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları aşağıdakılardır:**

• *valyuta riski - valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;*
• *faiz riski - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;*
• *inflyasiya riski - pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;*
• *likvidlik riski - müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;*
• *əməliyyat riski - daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;*
• *hesablaşma və kontragent riski - hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;*
• *kredit riski - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;*
• *təbii - insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s. risklər).*

**4.2. Emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:** Proqnoz edilə bilməyən makroiqtisadi və bazar riskləri, hüquqi tənzimləyici faktorlar. Azərbaycan manatının kəskin devalivasiyanın olması halında - müştərilərimizin öhdəliklərinin kəskin artması və ödəmə qabiliyyətinin kəskin zəifləməsi, maliyyə bazarında durğunluğun yaşanması və pul axınının azalması əsas risk faktorlarındandır. BOKT “İDEAL KREDİT” MMC valyuta risklərini minimumlaşdırmaq üçün artıq uzun müddətdir xarici valyutada borclanmanı dayandırmışdır. Hazırda BOKT-un xarici valyutada yalnız təsisçiləri qarşısında uzunmüddətli öhdəlikləri mövcuddur. BOKT-un kredit portfelində xarici valyutada verilmiş kreditlərin 30.04.2025-ci il tarixinə qalığı **215384.51 (iki yüz on beş min üç yüz səksən dörd manat 51 qəpik) manat** ekvivalentindədir ki, bu da ümümi kredit portfelinin 1% (bir) faizi həcmində olmaqla 2016-cı ildən öncə verilmiş kreditlərdir. Bundan əlavə əsas risk faktorlarından biri də kredit riskləridir. BOKT “İDEAL KREDİT” MMC, kredit risklərini minimumlaşdırmaq üçün daxili kredit qaydaları ilə tənzimlənən kredit limitləri, diversifikasiya tədbirləri və s. alətlərdən istifadə etməkdədir.

## 5. TƏKLİF

**5.1. İstiqraz emissiyası zamanı aşağıdakı məlumatlar təqdim edilməlidir**

**5.1.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Emissiyadan əldə olunan vəsait BOKT-un kredit portfelinin artırılmasına və mənfəətin əldə edilməsindən ibarətdir. Qeyd edilən məqsəddən əlavə digər hər hansı səbəb mövcud deyildir.

**5.1.2. Təklifin şərtlərinin təsviri:** Emissiya ediləcək istiqrazlar qanunvericiliklə müəyyən edilmiş orqan (qurum) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix “Bakı Fond Birjası” QSC-nin və Anderrayterin saytında investorlara açıqlanacaqdır. İstiqrazlar kütləvi təklif üsulu ilə Bakı Fond Birjasında 5 il müddətli, təmin edilməmiş, sənədsiz, adlı, istiqraz nominal dəyəri (100 AZN) olmaqla, illik faiz (kupon) dərəcə və kuponun rüblük ödəniş şərti ilə (6 000 000 AZN) dəyərində emissiya olunacaqdır. Yerləşdirmə müddətində investorlar

istiqrazların dəyərini Emitentin “PAŞA Bank” ASC-də açılmış müvəqqəti cari hesabına köçürməlidirlər.

Emissiya ediləcək istiqrazlar qanunvericiliklə müəyyən edilmiş orqan (qurum) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix “Bakı Fond Birjası” QSC-nin və Anderrayterin saytında investorlara açıqlanacaqdır. Hər bir istiqraz buraxılışı üzrə yerləşdirmənin başlanma və başa çatma tarixləri yekun şərtlərdə təqdim olunacaq. Hərrac qanunvericilikdə qeyd olunan müddətdə başa çatdırılacaqdır.

Bu Baza Emissiya prospektinə dəyişikliklər “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanunun 10-cu maddəsinə əsasən tənzimlənir. Baza Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 (beş) iş günü ərzində qanunvericilikdə müəyyən edilmiş orqana (quruma) təqdim edilir.

“Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda (“Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və emitentin internet səhifəsində açıqlanır.

5.1.3. **Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat:** Emissiyada aşağıdakı şəxslər iştirak edir və onlar arasında maraqlar toqquşması mövcud deyil:

**“Bakı Fond Birjası” QSC.** Emissiy a prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin, təkrar bazarlarda alğı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində “Bakı Fond Birjası” QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların hərrac vasitəsilə yerləşdirilməsi üçün müvafiq ticarət sisteminin təmin edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi.

**“Milli Depozit Mərkəzi”.** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

**"PAŞA Kapital İnvestisiya Şirkəti" QSC (anderrayter).** 09 mart 2016-ci il tarixində Azərbaycan Respublikasının lqtisadiyyat Nazirliyi tərəfindən investisiya şirkəti fəaliyyətini həyata keçirilməsi üçün verilmiş ISN/L-640/2016 nomrəli lisenziya əsasında investisiya şirkəti

fəaliyyətini həyata keçirir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində anderrayterin vəzifələri aşağıdakılardır:

- Emitentin iqtisadi və maliyyə vəziyyətinin təhlilini aparmaq;
- Qiymətli kağızlar bazarından pul vəsaiti cəlb etmə imkanlarını araşdırmaq;
- İstiqrazların yerləşdirilməsi üzrə hərrac zamanı toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alğı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək.

**"PAŞA Kapital İnvestisiya Şirkəti" QSC**
Lisenziya nömrəsi: İSN/L-640/2016, 088806
Lisenziya verilmə tarixi: 09.03.2016
Ünvanı: Bakı, Lev Tolstoy küçəsi 170, AZ1095
VÖEN: 1402281511
Tel: (+ 994 12) 493-33-66 | (+ 994 12) 493-33-88
Email: office@pashacapital.az
www.pashacapital.az

### 5.1.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:

**Vergilər.** İstiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. Hüquqi şəxs olan istiqraz mülkiyyətçilərinin istiqrazlar üzrə faiz gəlirindən Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123-cü maddəsinə müvafiq olaraq ödəniş mənbəyindən 10 (on) faiz vergi tutulur (Vergi Məcəlləsinin 123.1-ci maddəsində nəzərdə tutulan şəxslər istisna olmaqla).

Bununla yanaşı, Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində yalnız kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə müvafiq olaraq ödənilən dividend, diskont və faiz gəlirləri vergidən azad olunur, Yəni, istiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən tutulan vergidən fiziki şəxslər 2028-ci ilin fevral ayının 1-dək azaddırlar. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır .

**Xərclər.** İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:

- Bakı Fond Birjası - əqdin həcmindən 0.02%;
- Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
- İnvestisiya şirkətləri – investisiya şirkəti ilə investor arasında bağlanmış müqavilə əsasında;
- Bank köçürmə xərcləri – bankdan aslı olaraq dəyişir.

## 6. İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT

### 6.1. Emitentin auditorları barədə məlumat

**6.1.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| Maliyyə ili | Auditorun adı | Ünvanı | Audit təşkilatında üzvlüyü barədə məlumat |
|---|---|---|---|
| **2024** | "Nexia Azərbaycan" QSC | World Business Centre, 15-ci mərtəbə, S.Rəhimov küçəsi 23, AZ1014, Bakı, Azərbaycan | Nexia İnternational |
| **2023** | "Reanda Azərbaycan" MMC (əvvəlki adı "Oshar" MMC) | Bakı şəhəri, Tbilisi pr. 35, ASK Plaza 2-ci mərtəbə | Reanda İnternational |
| **2022** | "Reanda Azərbaycan" MMC (əvvəlki adı "Oshar" MMC) | Bakı şəhəri, Tbilisi pr. 35, ASK Plaza 2-ci mərtəbə | Reanda İnternational |

**6.1.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** "Reanda Azərbaycan" MMC ilə müqavilə müddəti bitdiyi üçün sonuncu 2024-cü ilin kənar auditor yoxlamasını "Nexia Azərbaycan" QSC həyata keçirmişdir.

## 6.2. Seçilmiş maliyyə məlumatı

**6.2.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:**

| Göstəricilər | 2024 (audit olunmuş) | 2023 (audit olunmuş) | 2022 (audit olunmuş) |
|---|---|---|---|
| **Mənfəət/Zərər (vergidən əvvəl)** | 2 923 473 | 1 836 923 | 1 299 267 |
| **Xalis mənfəət (vergidən sonra)** | 2 371 276 | 1 469 538 | 1 039 413 |
| **Cəmi öhdəliklər** | 10 604 414 | 8 002 047 | 5 146 928 |
| **Cəmi kapital** | 7 311 612 | 4 940 335 | 3,605,532 |
| **Cəmi aktivlər** | 17 916 026 | 12 942 382 | 8 752 460 |
| **Kredit Portfeli** | 15 726 137 | 11 944 666 | 8 099 590 |
| **Pul vəsaitləri** | 58 464 | 44 022 | 112 037 |

| Son üç maliyyə ili | 2024 (audit olunmuş) | 2023 (audit olunmuş) | 2022 (audit olunmuş) |
|---|---|---|---|
| **Xalis əməliyyat gəliri** | 4 616 020 | 2 446 376 | 1 822 902 |
| **İnzibati və digər əməliyyat xərcləri** | 1 692 547 | 609 453 | 523 635 |
| **Mənfəət /Zərər (vergidən əvvəl)** | 2 923 473 | 1 836 923 | 1 299 267 |

| Mənfəət /Zərər (vergidən sonra) | 2 371 276 | 1 469 538 | 1 039 413 |
|---|---|---|---|

## 6.3. Emitent barədə məlumat

**6.3.1. Emitentin tam adı, təşkilati-hüquqi forması:** Bank Olmayan Kredit Təşkilatı "İdeal Kredit" Məhdud Məsuliyyətli Cəmiyyət

**6.3.2. Emitentin dövlət qeydiyyatının rekvizitləri:** VÖEN 1300480591, qeydiyyat tarixi: 09.01.2003, hüquqi ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Fətəlixan Xoyski pr., ev 111"A", m. 26

**6.3.3. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** Dəyişdirilməmişdir

**6.3.4. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:** Bakı şəh, Binəqədi ray, 7-ci MKR, S.S.Axundov küç., 3123-cü məhəllə, office@idealkredit.az, https://www.idealkredit.az/, 0125262625

**6.3.5. Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** Mövcud deyil

**6.3.6. İdarəetmə orqanlarının Emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri ilə bağlı məlumat:** Mövcud deyil

**6.3.7. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:**
Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətində yerləşdiriləcəkdir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tərixli "fond birjası fəaliyyati"-ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlər və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB Qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarəti təşkil edir.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasaməl rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)
Elektron poçt ünvanı: info@bse.az
Internet şəbəkəsində rəsmi səhifəsi: www bse.az
Tel: (+99412) 539 72 49

BFB-nin fəaliyyəti Azərbəycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlər bazarı həqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 6.4. Emitentin biznesinin icmalı

**6.4.1. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:** BOKT "İDEAL KREDİT" MMC Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər. Kreditlərin verilməsi üçün müvafiq

lisenziyaya malik BOKT "İDEAL KREDİT" MMC, həmçinin aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:
-Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);
-Lizinq;
-Veksellərin uçotu;
-Qarantiyanın verilməsi;
-Sığorta agenti xidmətlərinin göstərilməsi;
-Borcalanlara, o cümlədən, birgə borcalan qruplarına maliyyə, texniki, idarəetmə və maliyyə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

BOKT "İDEAL KREDİT" MMC-nin əsas məhsul kateqoriyaları – Lizinq, qızıl girovlu kreditlər, daşınmaz əmlak girovlu kreditlər və istehlak məhsullarının kreditləşdirilməsi üzrə kreditlərdir. Son 3 il üzrə bu məhsullar üzrə kredit portfeli, gəlirlik və mənfəətlik aşağıdakı kimi olmuşdur:

| Son üç maliyyə ili | 2024 (audit olunmuş) | 2023 (audit olunmuş) | 2022 (audit olunmuş) |
|---|---|---|---|
| Kredit portfeli | 15 726 137 | 11 944 666 | 8 099 590 |
| Gəlirlər | 4 616 020 | 2 446 376 | 1 822 902 |
| Xalis mənfəət | 2 371 276 | 1 469 538 | 1 039 413 |

**6.4.2. Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:** Yeni məhsul təqdim edilməmişdir

**6.4.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri:** BOKT "İDEAL KREDİT" MMC əsasən təminatlı kreditlər olmaqla fiziki şəxslərə, fərdi sahibkarlara və hüquqi şəxslərə kreditlərin verilməsi üzrə fəaliyyət göstərir. BOKT hazırda əsasən riteyl və mikro biznes kredit bazarında rəqabət aparır. Son illər BOKT sektorunun portfeli dinamik şəkildə artmaqda davam edir və 2024-cü ilin yekununa BOKT sektoru üzrə kredit portfeli 808 300 000 manat olduğu halda, təşkilatin kredit portfeli 17 423 400 manat olmuşdur ki, bu da onu göstərir ki, təşkilat, BOKT sektorunun 2.2%-nə malikdir. BOKT sektorunun portfeli 2023-cü ilin sonuna nisbətdə 2024-cü ilin sonuna 34.53% artmışdır (qeyd: məlumat Mərkəzi Bankın Maliyyə sektorunun statistikası ilə bağlı sayt https://cbar.az/page-188/credit-institutions məlumatlarından götürülmüşdür)

**6.4.4. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması:** BOKT "İDEAL KREDİT" MMC, BOKT sektorunda aparıcı mövqelərdə qərarlaşıb. Öz fəaliyyətində keyfiyyətli xidmət və şəffaflıq prinsiplərinə xüsusi önəm verir.

### 6.5. Digər təşkilatlarda iştirak

**6.5.1. Emitentin digər hüquqi şəxslərdə qısa təsviri:** BOKT "İDEAL KREDİT" MMC heç bir hüquqi şəxsdə iştirak etmir.

**6.5.2. Emitent daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:** BOKT heç bir qrupa daxil deyil və fəaliyyətini müstəqil şəkildə həyata keçirməkdədir.

## 6.6. Tendensiyalar barədə məlumat

**6.6.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişiklik olmadığı barədə məlumat:** Qeyd edilən tarixdən etibarən BOKT-un fəaliyyətinə mənfi təsir edəcək hər hansı bir hal baş verməmişdir.

**6.6.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:** BOKT ümumilikdə gəlirliliyini artırmaq və risklərini minimumlaşdırmaq məqsədilə yeni partnyorlarla əməkdaşlığa xüsusi önəm verməkdədir. Hazırda ölkədə maliyyə bazarının, həmçinin valyuta siyasətinin sabit olması kredit təşkilatlarının səmərəli işləməsinə münbit şərait yaradıb və hazırda qeyri-müəyyənlik mövcud deyil. BOKT-un öhdəlikləri fəaliyyət əsasında yaranan öhdəliklərdir və onlar da vaxtında icra edilir.

## 6.7. Gəlir proqnozu

**6.7.1. Emitent öz mülahizəsinə əsasən emissiya prospektinə, aşağıdakı bəndlərin tələblərinə uyğun, gəlir proqnozu barədə məlumatı emissiya prospektinə əlavə edir:** Mövcud deyil.

**6.7.2. Emitent tərəfindən müəyyən edilən və proqnozun əsasını təşkil edən əsas fərziyyələr haqqında hesabat. Hesabatda emitentinin idarə heyətinin təsir edə biləcəyi və həmçinin idarə heyətinin təsirindən kənarda olan amillər və fərziyyələr arasındakı fərq aydın şəkildə göstərilməlidir:** Mövcud deyil.

**6.7.3. Gəlir proqnozunun emitentin uçot siyasətinə uyğunluğu haqqında müstəqil auditorun hesabatı gəlir proqnozuna əlavə edilməlidir:** Mövcud deyil.

**6.7.4. Gəlir proqnozu və ya hesablaması keçmiş maliyyə məlumatları ilə müqayisə edilə bilən əsasda hazırlanmalıdır:** Mövcud deyil.

**6.7.5. Emissiya prospektinə əvvəl dərc olunmuş gəlir proqnozu daxil edildikdə, həmin proqnozun emissiya prospektinin tərtib olunması tarixinə etibarlılığı barədə məlumat təqdim edilməlidir:** Mövcud deyil.

## 6.8. Emitentin idarəetmə və nəzarət orqanları

**6.8.1. Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:**

**6.8.1.1. adı, soyadı, atasının adı: Emitentin Müşahidə Şurası barədə məlumat:**

| Adı, soyadı, atasının adı | Vəzifəsi | Funksiyaları |
|---|---|---|
| Quliyev Orxan Yavər oğlu | Müşahidə Şurasının sədri | Şuranın işini təşkil etmək, iclaslarını çağırmaq və iclaslarda sədrlik etmək; Şuranın rüblük planlarını, iclas protokollarını və qəbul olunmuş qərarlarını səlahiyyəti çərçivəsində imzalamaq və s. |

| | | |
|---|---|---|
| Səfərli Rəşad Məhərrəm oğlu | Müşahidə Şurasının üzvü | Şuranın iclaslarında təşkilatın fəaliyyəti ilə bağlı məsələləri müzakirə etmək və əhəmiyyətli qərarların qəbul olunmasında iştirak etmək; Direktor və Komitələrdən hesabatları almaqla nəzarət funksiyası və s. |
| Kərimova Leyla Əli qızı | Müşahidə Şurasının üzvü | Şuranın iclaslarında təşkilatın fəaliyyəti ilə bağlı məsələləri müzakirə etmək və əhəmiyyətli qərarların qəbul olunmasında iştirak etmək; Direktor və Komitələrdən hesabatları almaqla nəzarət funksiyası və s. |

**BOKT-un təkbaşına icra orqanı olan direktor barədə məlumat:**

| **Adı, soyadı, atasının adı** | **Vəzifəsi** | **Funksiyaları** |
|---|---|---|
| Qubadov Qubad Baxas oğlu | Direktor | Təşkilatın qanuni təmsilçisi funksiyasını icra edir; Təşkilatın adından qanunla qadağan edilməyən əqd və sazişlər bağlayır, sərəncamlar verir; Təşkilatın fəaliyyətinə cari rəhbərlik edir; İşçilərin işə qəbul və işdən azad olunması ilə bağlı qərarlar qəbul edir; və s. |

**6.8.1.2. xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:** Direktor eyni zamanda təsisçi olduğu üçün ziddiyyət yaranma ehtimalı yoxdur. Bundan əlavə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1.6- cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı təşkilatın Müşahidə Şurasına, o olmadıqda, İştirakçıların Ümumi Yığıncağına yazılı şəkildə təqdim etməlidirlər.

## 6.9. İdarə Heyətinin işgüzar praktikası

**6.9.1. Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:** Audit komitəsi mövcuddur, üzvləri 1. Cəfərova Zülfiyyə Rəfail qızı – komitə sədri, 2. Kərimova Leyla Əli qızı - komitə üzvü, 3. Səfərli Rəşad Məhərrəm oğlu - komitə üzvü

| **Komitələr** | **Üzvləri** | **Funksiyaları** |
|---|---|---|
| Audit Komitəsi | Cəfərova Zülfiyyə Rəfail qızı – sədr<br>Kərimova Leyla Əli qızı - üzv<br>Səfərli Rəşad Məhərrəm oğlu - üzv | Audit Komitəsinin hesabatları almaqla nəzarət funksiyası və s.<br>Təşkilatın fəaliyyət sahəsini tənzimləyən normativ hüquqi akt və ya aktları, audit siyasətini və strategiyasını müəyyən etmək və s. |

| | | |
|---|---|---|
| Mükafatlandırma komitəsi | Bu komitə mövcud deyil | |

**6.9.2. Emitentin, qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə izahat:** Azərbaycan Respublikasında xüsusi olaraq korporativ idarəetmə standartları mövcud deyildir. Şirkətlərin idarəetmə forması ümumi olaraq Mülki Məcəllə ilə müəyyən edilir.

## 6.10. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər

**6.10.1. Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:** BOKT-un Nizamnamə kapitalı 646 700 manat həcmindədir və hər biri 6 467 (altı min dörd yüz altmış yeddi) manat olmaqla 100 (bir yüz) paydan ibarətdir**.**

| Adı | Vətəndaşlığı | Payların həcmi | Nizamnamə Kapitalında faiz nisbəti |
|---|---|---|---|
| Qubadov Qubad Baxas oğlu | Azərbaycan Respublikası | 50 | 50 % |
| Hüseynov Eldar Əvəz oğlu | Azərbaycan Respublikası | 50 | 50 % |

**6.10.2. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:** BOKT-da daxili nəzarət mexanizmləri qurulmuşdur. BOKT-un fəaliyyəti lisenziyalı fəaliyyət olduğu üçün bir başa Mərkəzi Bankın tərəfindən tənzimlənir. İstiqraz sahibləri BOKT-un təqdim edəcəyi rüblük və ya illik maliyyə hesabatları vasitəsilə şirkətin mənfəətinin artıb azalmasına, dividend ödənişlərinə və nizamnamə kapitalının artıb azaldılmasına nəzarət etməklə müvafiq nəzarətin sui-istifadə edilmədiyindən əmin ola bilərlər. Bundan əlavə mühüm iştirak payına sahib olan şəxslərdən Qubadov Qubad Baxas oğlu eyni zamanda BOKT-un direktoru olduğu üçün nəzarət funksiyası birbaşa özü tərəfindən həyata keçirilir.

**6.10.3. Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Belə hal mövcud deyil

## 6.11. Emitentin maliyyə məlumatları

**6.11.1. Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:**

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2024-CÜ İL TARİXİNƏ**
***(Azərbaycan Manatı ilə)***

| | Qeydlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7 | 58,464 | 44,022 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 8 | 15,726,137 | 11,944,666 |
| Əsas vəsaitər | 9 | 185,151 | 253,163 |
| Qeyri-maddi aktivlər | 9 | 23,814 | 17,640 |
| Satış üçün saxlanılan aktivlər | 10 | 266,206 | - |
| İstifadə hüquqlu aktivlər | 11 | 1,153,653 | 185,029 |
| Təxirə salınmış vergi aktivi | 22 | 331,774 | 262,101 |
| Digər aktivlər | 12 | 170,827 | 235,761 |
| **CƏMİ AKTİVLƏR** | | **17,916,026** | **12,942,382** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **Öhdəliklər** | | | |
| Bank kreditləri | 13 | 5,150,125 | 2,909,068 |
| Səhmdarlara olan borclar | 14 | 3,649,960 | 2,853,960 |
| İcarə öhdəliyi | 15 | 1,165,195 | 185,029 |
| Cari mənfəət vergisi öhdəliyi | | 315,801 | 148,359 |
| Taxirə salınmış komissiya gəlirləri | | - | 191,301 |
| Digər öhdəliklər | 16 | 323,333 | 1,714,330 |
| **Cəmi öhdəliklər** | | **10,604,414** | **8,002,047** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 17 | 646,700 | 646,700 |
| Bölüşdürülməmiş mənfəət | | 6,664,912 | 4,293,635 |
| **Cəmi kapital** | | **7,311,612** | **4,940,335** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **17,916,026** | **12,942,382** |

## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT 31 DEKABR 2024-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ

***(Azərbaycan Manatı ilə)***

| | Qeydlər | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə | 31 dekabr 2023-cü il tarixində bitən il üzrə |
|---|---|---|---|
| Effektiv faiz metodundan istifadə etməklə hesablanmış faiz gəlirləri | 18 | 4,657,503 | 2,647,519 |
| Faiz xərcləri | 18 | (483,011) | (259,070) |

| | | | |
|---|---|---|---|
| Xalis faiz gəlirləri | | 4,174,492 | 2,388,449 |
| Gözlənilən kredit zərəri | 8 | (264,803) | (475,950) |
| Ehtiyat ayırmalarından sonra xalis faiz gəlirləri | | 3,909,689 | 1,912,499 |
| Xarici valyuta əməliyyatları üzrə xalis gəlir | | (48) | (176) |
| Haqq və komissiya gəlirləri və xərcləri, xalis | 19 | 526,217 | 576,517 |
| Digər gəlirlər | 21 | 180,162 | (42,464) |
| XALİS QEYRİ-FAİZ GƏLİRİ | | 706,331 | 533,877 |
| ƏMƏLİYYAT GƏLİRİ | | 4,616,020 | 2,446,376 |
| İnzibati və digər əməliyyat xərcləri | 20 | (1,692,547) | (609,453) |
| VERGİDƏN ƏVVƏLKİ MƏNFƏƏT | | 2,923,473 | 1,836,923 |
| Mənfəət vergisi xərci | 22 | (552,197) | (367,385) |
| İL ÜZRƏ XALİS MƏNFƏƏT | | 2,371,276 | 1,469,538 |
| İl üzrə digər məcmu gəlirlər | | - | - |
| İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR | | 2,371,276 | 1,469,538 |

## 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

| (Azərbaycan Manatı ilə) | **Nizamnamə kapitalı** | **Bölüşdürülməmiş mənfəət** | **Cəmi kapital** |
|---|---|---|---|
| **1 yanvar 2023-cü il tarixinə qalıq** | **646,700** | **2,824,097** | **3,470,797** |
| İl üzrə mənfəət | - | 1,469,539 | 1,469,539 |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **646,700** | **4,293,636** | **4,940,336** |
| İl üzrə mənfəət | - | 2,371,276 | 2,371,276 |
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **646,700** | **6,664,912** | **7,311,612** |

## 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

| (Azərbaycan Manatı ilə) | Qeydlər | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə | 31 dekabr 2023-cü il tarixində bitən il üzrə |
|---|---|---|---|
| Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını | | | |
| Vergidən əvvəlki mənfəət | | 2,923,473 | 1,836,924 |
| Düzəlişlər: | | | |

| | | | |
|---|---|---|---|
| Gözlənilən kredit zərərəi | | 264,803 | 475,950 |
| Xarici valyuta əməliyyatları üzrə məzənnə fərqi | | - | 174 |
| Silinmə | | - | - |
| Köhnəlmə və amortizasiya xərcləri | | 67,870 | 16,780 |
| Əsas vəsaitlərin satışından gəlirlər | | (6,172) | - |
| Hesablanmış faizlərdə xalis dəyişmələr | | 13,429 | (763,387) |
| Faiz xərcləri | | 483,011 | - |
| Digər qeyri-nağd əməliyyatlar | | 17,882 | - |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını | | 3,764,296 | 1,566,441 |
| Müştərilərə verilmiş kreditlər və avanslarda xalis (artım)/azalma | | (5,099,788) | (3,845,076) |
| Satış üçün saxlanılan aktivlərdə xalis (artım)/azalma | | (164,438) | - |
| Digər aktivlərdə xalis (artım)/azalma | | 64,934 | (129,051) |
| Digər mənfəət üzrə öhdəliklərdə xalis (artım)/azaltma | | - | (111,494) |
| Digər öhdəliklərdə xalis artım/(azalma) | | (542,213) | 1,218,751 |
| Əməliyyat fəaliyyətindən əldə olunmuş /(yönəlmiş) vergi və faizlərdən əvvəlki xalis pul vəsaitləri | | (1,977,209) | (1,300,429) |
| Ödənilmiş mənfəət vergisi | | (495,135) | (227,492) |
| Ödənilmiş faiz xərcləri | | (445,308) | - |
| Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri | | (2,917,652) | (1,527,921) |
| | | | |
| İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərin axını | | | |
| Əsas vəsaitlərin alınması | | (39,409) | (109,109) |
| Qeyri-maddi aktivlərin alınması | | (6,000) | - |
| Əsas vəsaitlərin satışından gəlirlər | | 15,800 | - |
| İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri | | (29,609) | (109,109) |
| Maliyyələşdirilmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını | | | |
| Bankdan alınmış kreditlər üzrə daxilolmalar | | 6,308,863 | 1,569,015 |
| Banklara alınmış kreditlərin geri ödənilməsi | | (4,082,558) | - |
| Səhmdarlardan alınmış borclar üzrə daxilolmalar | | 1,000,000 | - |
| Səhmdarlardan alınmış borcların geri ödənilməsi | | (204,000) | - |
| İcarə öhdəliyinin ödənilməsi (əsas məbləğ) | | (37,649) | - |
| İcarə öhdəliyinin ödənilməsi (faiz məbləğ) | | (22,951) | - |
| Maliyyələşdirilmə fəaliyyətindən daxil olan pul vəsaitləri | | 2,961,705 | 1,569,015 |
| | | | |
| Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma/(azalma) | | 14,444 | (68,015) |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | 8 | 44,020 | 112,037 |
| İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri | 8 | 58,464 | 44,020 |

**6.11.2. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** Emitent "İdeal Kredit" adı ilə 2014-cü ildən fəaliyyət göstərir

**6.11.3. Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:**

**6.11.3.1. maliyyə vəziyyəti haqqında hesabat 6.11-ci bənddə təqdim edilmişdir**

**6.11.3.2. mənfəət və zərər haqqında hesabat 6.11-ci bənddə təqdim edilmişdir**

**6.11.3.3.** **kapitalda dəyişiklik haqqında hesabat** **6.11-ci bənddə təqdim edilmişdir**
**6.11.3.4.** **nağd pul vəsaitlərinin hərəkəti haqqında hesabat** **6.11-ci bənddə təqdim edilmişdir**
**6.11.3.5.** **uçot siyasətləri və izahlı qeydlər** BOKT-un maliyyə hesabatları MHBS-ə uyğun olaraq hazırlanmışdır.

**6.11.4. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** BOKT-da konsolidasiya olunmuş maliyyə hesabatı hazırlanmır;

**6.11.5. Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarım illik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:** BOKT-da rüblük və ya yarımillik hesabat audit olunmur

**6.11.6. Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarım illik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** BOKT-un illik təsdiq edilmiş audit hesabatları bu baza emissiya prospektinə əlavə edilmişdir. BOKT-da rüblük və ya yarımillik hesabat audit olunmur.

**6.11.7. Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Son bir ildə BOKT-nin maliyyə vəziyyətinə və gəlirliyinə təsir edən hüquqi proseslər baş verməmişdir.

**6.11.8. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** BOKT "İDEAL KREDİT" MMC-nin gəlir gətirən aktivləri və xalis mənfəəti 2024-cü ildə 2023-cü il ilə müqayisədə artım dinamikasındadır. BOKT-un kredit portfeli də audit hesabatlarına əsasən 2023-cü ilin sonuna nisbətdə 2024-cü ildə 31.66% artaraq 11 944 666 AZN-dən 15 726 137 AZN-ə çatmışdır. Bu da təşkilatın dinamik böyüməsinin göstəricisidir.

## 6.12. Emitent haqqında əlavə məlumatlar

**6.12.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin (payların) miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:** BOKT-un Nizamnamə kapitalı 646 700 manat həcmindədir və hər 6 467 (altı min dörd yüz altmış yeddi) manat olmaqla 100 (bir yüz) paydan ibarətdir.

| Adı | Vətəndaşlığı | Payların həcmi | Nizamnamə Kapitalında faiz nisbəti |
|---|---|---|---|
| Qubadov Qubad Baxas oğlu | Azərbaycan Respublikası | 50 | 50 % |
| Hüseynov Eldar Əvəz oğlu | Azərbaycan Respublikası | 50 | 50 % |

- BOKT "İDEAL KREDİT" MMC-nin nizamnamə kapitalı cəmiyyətin kreditorlarının manafelərinə təminat verən əmlakının minimum miqdarını müəyyənləşdirir.
- BOKT-un nizamnamə kapitalının artırılması və ya azaldılması payçıların Ümumi Yığıncağının qərarı ilə həyata keçirilir.
- BOKT-un nizamnamə kapitalındakı payların özgənikləşdirilməsi, mühum iştirak payının əldə edilməsi Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə tənzimlənir.

**Paylarla təsbit olunan hüquqlar aşağıdakılardır:**

- BOKT-a yeni iştirakçılar yalnız Ümumi Yığıncağın qərarına əsasən və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qoşula bilər.
- BOKT əlavə ehtiyatları və kredit fəaliyətindən əldə edilən istifadə olunmayan daxilolmaları kapitalizasiya etdikdə. Payçılar tərəfindən əlavə ödəmələr edildikdə və ya BOKT-a yeni iştirakçılar qəbul olunduqda, Ümumi Yığıncağın qərarına əsasən nizamnamə kapitalını artıra bilər.
- Cəmiyyət iştirakçısının qoyduğu mayanın tərkibi və onun dəyişməsi, mayanın qoyulması qaydası və müddəti Ümumi Yığıncaq tərəfindən müəyyən edilir.
- Ümumi Yığıncağın qərarı əsasında vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranan xalis mənfəət iştirakçılar arasında onların nizamnamə kapitalındakı paylarına mütənasib qaydada bölüşdürülür.
- Cəmiyyət, iştirakçının payını (və ya onun bir hissəsini) əldə etdiyi halda, həmin payı (və ya payın hissəsini) Ümumi Yığıncağın qərarında müəyyən edilmiş müddətdə və qaydada satmalı və ya qanunvericiliyə müvafiq qaydada nizamnamə kapitalını azaltmalıdır.

**Payçıların aşağıdakı hüquqları vardır:**

- Azərbaycan Respublikasının qanunvericilinə və bu Nizamnamənin şərtlərinə əsasən BOKT-nin idarə edilməsində iştirak etmək;
- BOKT-nin fəaliyətinə dair idarəetmə orqanlarından məlumat əldə etmək;
- BOKT-nin idarə etmə orqanlarına təklif təqdim etmək;
- BOKT-də olan payı özgəninkiləşdirmək, payına uyğun olan və BOKT-nin borcları məbləğində azaldılmış BOKT-nin əmlak hissəsi (nəğd pulla və ya Ümumi yığıncağın qərarına əsasən natura ilə) ödənilir: BOKT-nin akiv və passivlərin dəyəri iştirakçının çıxdığı məqamda daxili auditor və ya müstəqil auditor tərəfindən tərtib olunan balans üzrə hesablanır.
- BOKT-un Nizamnamə kapitalı ilə bağlı mühüm iştirak payı əldə edilə bilər.
- Azərbaycan Respublikasının qanunvericiliyində və bu Nizamnamədə nəzərdə tutulan digər hüquqlardan istifadə etmək.

**Payçının vəzifələri:**

- Nizamnamənin tələbinə uyğun olaraq payı ödəmək:
- Bu Nizamnamənin müddəalarına əməl etmək:
- BOKT –nin kommersiya sirrinə aid olan məlumatları yaymamaq:
- BOKT-nin idarə olunmasında bu Nizamnamənin müddəalarına və Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq iştirak etmək.
- BOKT-nin vəzifə və öhdəliklərini yerinə yetirməsində ona yardım etmək.

**6.12.2. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:**

**6.12.2.1. fəaliyyət və məqsədlərin təsviri:** BOKT "İDEAL KREDİT" MMC Azərbaycan Respublikasının BOKT-lar haqqında qanununda göstərilmiş fəaliyyət növləri ilə məşğul ola bilər.

**6.12.2.2. idarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı:** Ümumi yığıncağın hüquq vəzifələri, o cümlədən, Müşahidə Şurasının hüquq və vəzifələri Azərbaycan Respublikasının Mülki Məcəlləsində və ona müvafiq olaraq hazırlanmış BOKT-un nizamnaməsində nəzərdə tutulan müəddəalar çərçivəsində həyata keçirilir.

**6.12.3. Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyil

# 7. BAZA EMİSSİYA PROSPEKTİ ÜZRƏ İSTİQRAZLAR HAQQINDA TƏLƏB OLUNAN MƏLUMAT

## 7.1. İstiqrazlar haqqında ümumi məlumat

**7.1.1. Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:**
Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016 -cı il tarixli 05 saylı qərarı ilə təsdiq edilmiş "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" və 27 yanvar 2016-cı il tarixli 04 saylı qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar" və digər hüquqi aktlar.

**7.1.2. Təklif olunan qiymətli kağızların reytinqi və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif edilən istiqrazların reytinqi mövcud deyil.

**7.1.3. İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

**7.1.4. İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:**

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123.1 ci maddəsinə əsasən Rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, Məcəllənin 102.1.22-2-ci maddəsində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur. Həmçinin, AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

**7.1.5. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Emissiya ediləcək istiqrazlar həm fiziki, həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

**7.1.6. 7.2.1-ci–7.2.12-ci bəndlərində göstərilən hər hansı məlumat emitentə məlum olduğu təqdirdə baza emissiya prospektinin qeydiyyatı zamanı təqdim edilməlidir.**

**7.2. İstiqrazların buraxılışı haqqında yekun şərtlər**

**7.2.1. İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar

**7.2.2. Təklif edilən istiqrazların sayı və nominal dəyəri: 60 000 ədəd, nominalı 100 AZN**

**7.2.3. İstiqrazların valyutası: AZN**

**7.2.4. İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:** İstiqrazın sahibi aşağıdakı hüquqlara malikdir:

- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda istiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən illik (14 faiz) olmaqla, istiqrazların tədavül müddəti ərzində faiz almaq;
- Emitentin ləğvi, yaxud yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- İstiqrazların əldə edilməsi ilə bağlı heç bir məhdudiyyət mövcud deyildir
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**7.2.5. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

**7.2.6. İstiqrazlar üzrə ödənilməli faizlər:** İstiqrazlar üzrə illik faiz dərəcəsi (_14_) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən ( 5 ) il müddətində, ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə) hər (_3_) təqvim ayından bir ödənilir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti ilk iş günü ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir. İstiqrazların nominal dəyəri sonuncu kupon ödənişi ilə birlikdə ödəniləcəkdir.

**7.2.7. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi (_14%_) müəyyən edilmişdir.

**7.2.8. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi mövcud deyil. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcəkdir.

**7.2.9. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmişdir.

**7.2.10. İstiqrazların geri satın alınmasının şərtləri:** Tədavül müddətində istiqrazların geri satınalınması nəzərdə tutulmamışdır.

**7.2.11. Gəlirlilik dərəcəsi və onun hesablanması qaydası:** İstiqrazlar üzrə kupon gəlirliyi illik (_14_) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$\boldsymbol{TF = \frac{\left(\frac{N * D * G}{360}\right)}{100}}$$

Burada:
TF – Bir istiqraz üzrə toplanmış faizlər;
N – Bir istiqrazın nominal dəyəri (_100 AZN_);
D – İstiqrazların illik faiz dərəcəsi (_14%_);
G – İstiqrazlar üzrə son faiz (kupon) ödənişindən sonra keçən günlərin sayı.

**7.2.12. İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** Mövcud deyil.